**UOT: 94 (479.24)**

**Əli FƏRHADOV**
**Milli Azərbaycan Tarixi Muzeyi, tarix üzrə fəlsəfə doktoru**
**ali_farhadov@yahoo.com**

# QACARLAR DÖVRÜNDƏ DİN, SUFİZM VƏ FƏLSƏFƏYƏ BAXIŞ

# A LOOK AT RELİGİON, SUFISM AND PHILOSOPHY DURİNG THE QAJAR PERİOD

# ОБЗОР РЕЛИГИИ, СУФИЗМА И ФИЛОСОФИИ В КАДЖАРСКИЙ ПЕРИОД

**Xülasə:** XIX əsrdə Qacar dövlətində mədrəsələrdə təkcə Quran, təfsir, hədis və dini elmlər yox, dünyəvi, fəlsəfi elmlər, məntiq tədris edilirdi. Təbrizdə və Azərbaycanın digər şəhərlərində də dini-fəlsəfi, sufizm əsərləri çap edilirdi. Qacar hökmdarları ruhanilərə qayğı göstərirdi. Məhəmməd şah Qacarın dövründə sufilər xüsusi himayə olunurdu. Nəsrəddin şah Qacar da öz dövrünün din filosoflarına böyük hörmət göstərmişdir. Qacarlar dövründə sufizm və fəlsəfənin inkişafı əsasən ruhanilərin təzyiqləri ilə üzləşmişdir.
**Açar sözlər:** Qacar, fəlsəfə, sufizm, din, təriqətlər.

**Abstract:** In the 19th century, not only the Qur'an, tafsir, hadith and religious sciences, but also secular, philosophical sciences and logic were taught in madrassas in the Qajar state. Religious-philosophical, sufism works were also published in Tabriz and other cities of Azerbaijan. The Qajar rulers cared for the clergy. During the reign of Muhammad Shah Qajar, Sufis were given special protection. Naser al-Din Shah Qajar also showed great respect to the religious philosophers of his time. During the Qajar period, the development of sufism and philosophy was mainly under the pressure of the clergy.
**Keywords:** Qajar, philosophy, Sufism, religion, sects.

**Резюме:** В 19 веке в медресе государство Гаджар преподавали не только Коран, тафсир, хадисы и религиозные науки, но также светские, философские науки и логику. Религиозно-философские и суфийские труды издавались в Тебризе и других городах Азербайджана. Правители Гаджаров заботились о духовенстве. Во время правления Мухам-

мад-шаха Гаджара суфиям была предоставлена особая защита. Насреддин Шах Гаджар также проявил большое уважение к религиозным философам своего времени. В период Гаджаров развитие суфизма и философии находилось в основном под давлением духовенства.

**Ключевые слова:** Каджар, философия, суфизм, религия, секты.

Məqalədə Qacarlar dövründə Cənubi Azərbaycanda din, fəlsəfə və sufizmə baxış ilk dəfə kompleks şəkildə tədqiq və təqdim olunmuşdur. VII əsrdən başlayaraq digər İslam ölkələrində olduğu kimi, Azərbaycanda da elmi fəaliyyət mədrəsə üsul-idarəsi şəklində olmuşdur. "Mədrəsə" ərəb dilindən alınma söz olub, lüğət mənası ilə "dərs təlim yeri" deməkdir [18, s.88]. Əsasən böyük şəhərlərdə yerləşən mədrəsələr orta və ali qruplara bölünürdü. Mədrəsələrdə isə əsasən fiqh, məntiq, fəlsəfə, ərəb-fars dilləri və ədəbiyyatları, İbn Sinanın tibb elmi, Şeyx Bəhayinin riyaziyyat elmi, N.Tusinin astronomiyası tədris edilirdi. Yuxarı qrupun tələbələri əsasən aşağıdakılara dərs deyirdi. Mədrəsə təhsili 10-12 il çəkir, müəllim və tələbələr çox vaxt həm də burada yaşayırdılar. Mədrəsələrin gəliri vəqflərdən qarşılanırdı. Mədrəsələrdə fəlsəfi elmlər də tədris edilirdi. Məsələn, XIII əsr filosof alim Əsiruddin Əbhərinin "İsaqoci"si, ona şərh kimi yazılan Numan ibn Şeyx Səid əş-Şirvaninin "Haşiyətu alə şərhi İsaqoci" kimi haşiyə kitabı və s. şərhlər mədrəsələrdə ən çox tədris edilən məntiq əsərləri idi [18, s.88-89].

Qacarlar dövlətinin qurucusu Ağa Məhəmməd xan hələ Kərim xan Zəndin hakimiyyəti dövründə onun əsiri olarkən mükəmməl mədrəsə təhsili görmüş, Qurana və islam fəlsəfəsinə xüsusi maraq göstərmişdi [14, s.265-266]. Fətəli şah Qacarın oğullarından Sultan Əhməd Mirzə "Tarixi-Əzdi" əsərində göstərir ki, mömin dindar olan Ağa Məhəmməd şah gecə namazına daim davam edər və din xadimləri ilə tez-tez söhbətlər edərdi [5, s.210].

II Qacar hökmdarı Fətəli şah din alimlərinə xüsusi qayğı göstərirdi [56]. O, hətta dövrün görkəmli ilahiyyatçısı, Molla Sədra fəlsəfəsinin davamçısı Molla Əli Nurini İsfahandan Tehrana dəvət etmiş, onun dərslərinə qatılmışdı [29, s.18]. Cəmaləddin Əfqani və filosof Molla Ağa Hikmi Qəzvini Molla Əli Nurinin ən məşhur tələbələrindən olmuşdur [29, s.20]. Təbrizli fəlsəfəçi Ağa Əli Zünuzinin atası Ağa Abdullah Zünuzi də Molla Əli Nuridən fəlsəfə və hikmət dərslərini oxumuş, Tehran mədrəsəsində ilahi hikmətdən dərs demişdir [50, s.579].

XIX əsr İranında təsəvvüfün əsas təmsilçilərindən biri Nemətullahi təriqəti idi. Bu təriqət İranda dini fəlsəfənin inkişafına böyük töhfələr vermişdir. Dövlətin qorunması üçün şiə ruhanilərinə ehtiyac hiss edən şah hökuməti, onların təzyiqilə nemətullahi təriqətinə keçən məmurlara təzyiqlər edir, işdən qovdururdu [28, p.20]. Nemətullahi kimi müxtəlif sufi təriqətlərinə mənsub olanlar üsuliyyə şiələrinin təhdidlərinə məruz qalır, küfrlə ittiham edilir, qətlə məruz qalırdılar [33, s.142-143]. Bunun əsas səbəblərindən biri də nemətullahilərin öz şeyxlərini XII İmam Mehdinin yer üzündəki təmsilçisi, hətta mütləq hökmdar kimi görmələri idi. Təriqətin qurucusu Şah Nemətullah Vəli (ö.1431) iddia edirdi ki, "Yer üzü hökmdarları öz dövrünün Kamil İnsanının sözünü yaymalıdırlar, çünki o, Mütləqdir, ilahi xüsusiyyətlərə malikdir" [25, p.46, 50]. Özlərini hz. Əli nəslindən sayan Nemətullahilər şiəliyin İranda yayılmasında böyük rol oynayıb XVI əsrdə Səfəvilərlə yaxın münasibətdə olsalar da [35, s.465-466], daha sonra təzyiqlərə məruz qaldılar. I Şah Abbasın (ö.1629), xüsusilə Sultan Hüseynin (ö.1722) hakimiyyəti dövründə İranı tərk etməyə məcbur oldular. İranda şiə müctəhidlərin təzyiqilə təsəvvüf demək olar ki süquta uğradı [25, p.51-52]. II Şah Abbasın (ö.1666) dövründə isə təsəvvüfün şiəliklə sintezinə üstünlük verən irfan fəlsəfəsi himayə edildi. Onun əsas təmsilçisi, Molla Sədranın da aid edildiyi Nurbəxşiyyə təriqəti idi. Lakin sufizmin şiəliklə sintezi ruhanilərin ciddi müxalifətinə səbəb oldu [34, s.179-181]. Nemətullahi piri olan Azərbaycan sufisi Zeynəlabdin Şirvani yazırdı ki, "1700-cü illərdən etibarən İranda sünni Kübrəviyyənin sonradan şiələşmiş Nurbəxşiyyə və Zəhəbiyyə kimi kiçik qollarının xaricində təsəvvüf və təriqətlər az qala yox olmuşdu və heç bir məna ifadə etmirdi" [41, s.76].





Bu proses Qacarların ilk dövründə də davam etdi. Nemətullahiliyi İranda bərpa etmək üçün Hindistandan gələn Seyid Məsum Əli Şah, Kərim xan Zəndin dövründə Şirazda nisbətən azad təbliğatla məşğul ola bildi, on minlərlə mürid yetişdirdi [41, s.77-78]. Lakin sonunda o və tərəfdarları oradan qovuldu. İsfahana getsə də qulaqları kəsildi. Oradan da qovulub Tehranda Zəndilərin düşməni olan Ağa Məhəmməd şah Qacarın himayəsinə sığındılar [25, p.56-57]. Məsum Əli Şah Fətəli şah Qacarla yaxın olan müctəhid Seyid Məhəmmədəli Bihbehaninin fətvasıyla 1795-ci ildə qətl edildi, onun davamçıları – Nur Əli Şah 1797-ci ildə və Müzəffər Əli Şah da 1800-cü ildə eyni aqibətə düçar oldular. "Risaleyi-xeyratiyyə" və s. əsərlərində sufiləri küfrlə ittiham edən [33, s.142-143] M.Bihbehani bu hadisələrdən sonra "Sufi-kuş" ("Sufi qatili") ləqbini qazanmışdı [41, s.77]. Sufiliyə qarşı olan ruhanilər onu islama sonradan əlavə edilmiş bidət, zərdüşti, yunan, xristian mistik fəlsəfələrinin davamı kimi görürdülər [25, p.31].

Nur Əli Şahın çıxışlarında – "Dövrün qütbü (pir-Ə.F.) Məsum Əli Şahdır. Bu dünyada və axirətdə qurtuluş ona itaətdən asılıdır. Bu, hökmdara da vacibdir. Əks təqdirdə məhv edilməlidir" [25, p.60], dediyi üçün Qacar hakimiyyəti onların İranda nüfuz qazanıb hakimiyyəti ələ keçirmə cəhdindən şübhələnmişdi [25, p.59]. Fətəli şahın M.Bihbehaniyə məktublarında da "sufilərin dinin əmrlərinə uyğun şəkildə həbsi və öldürülməsi" istənmişdi

[33, s.142-143; 41, s.80]. "Mükəmməl şiə = mükəmməl sufi" düsturundan hərəkət edən nemətullahilər, xüsusən Müzəffər Əli Şah ta orta əsrlərdən bəri islam dünyasında küfrlə ittiham edilən məşşailiklə (peripatetizm) işraqiliyi, vəhdəti-vücudu sintez edir, "Kamil İnsanı tanımayan və görməyən insanın nə Allahı və nə də İmam Mehdini tanıması qeyri-mümkündür" [41, s.81-82], deyirdi. Müzəffər Əli Şahdan sonra təriqətin piri olan Hüseyn Əli Şah (ö.1818) Fətəli şahı özlərinin məsumluğuna və şiəliyinə inandıra bildi və təriqətin İranda azad inkişafına yol açıldı. Təriqətin XIX əsrdəki ən böyük piri isə Məst Əli Şah ləqəbli Zeynalabdin Şirvani oldu [41, s.82-83]. Məhəmməd şah Qacarın hakimiyyətinə qədər o da ömrünü sürgünlərdə və edam qorxusu altında keçirdi [41, s.85-86]. Lakin hətta Məhəmməd şah Qacarın nemətullahilərə xoş münasibəti də şiə ruhanilərinin sufiliyə mənfi baxışını dəyişdirmədi [41, s.87].

Vəzir Hacı Mirzə Ağası nemətullahi pirlərindən mərhum Nur Əli Şahın müridi Molla Əbdülsəmədin müridi idi [41, s.86]. Onun əxlaq və irfan fəlsəfəsi mövzusunda "Sultanlığın 40 fəsli", peyğəmbərlik və imamlıqdan bəhs edən "Kəlmələr" və s. dini əsərləri, şeirləri də var [11, s.203-204]. III Qacar hökmdarı olan Məhəmməd şah, müəllimi və vəziri olan Mirzə Ağasını "şəriət və təriqət qübbəsinin dirəyi" [46, s.37] adlandırır, Qum, İraq və Məşhəddəki şiə türbələrinin əvəzinə sufi dərvişlərinin türbələrini ziyarət və təmir edirdi [9, s.477]. Sədrəzəmin sayəsində bir çox sufi təmayüllü ruhani yüksək dini vəzifələrə təyin edilmişdi. Ruhanilərin etirazına baxmayaraq, sarayın himayəsi nəticəsində Təbrizdə də Molla Rza Həmədani, Kövsər Əli Şah kimi nemətullahilər məhkəmələrdə və sş dövlət vəzifələrində xidmət edirdilər [25, p.64]. Hətta nadan ruhanilər tərəfindən "allahsız, kafir" sayılan, təzyiqlərə məruz qalan və bir çox əsəri məhv edilən nemətullahi şeyxi [10, s.18, 25, 28-29], Məst Əli şah ləqəbli səyyah Hacı Zeynalabdin Şirvani (1759-1838) sədrəzəmlə arasında rəqabət olmasına baxmayaraq, ölənə qədər Məhəmməd şahdan maaş almışdı [53]. Hacı Mirzə Ağası Z.Şirvaninin əvəzinə özü nemətullahilərin piri olmaq istəyirdi və sonunda Z.Şirvanini saraydan qovdura bilmişdi [41, s.86]. A.A.Bakıxanova görə Z.Şirvani Azərbaycan adının qədim fars dilində atəşgah mənasında olduğunu demişdir [4, s.27].

IV Qacar hökmdarı Nəsrəddin şahın hakimiyyətinin ilk dövründə babilik hərəkatı geniş yayıldı. İranlı Seyid Əliməhəmməd tərəfindən yaradılan babilik islamda islahatçılığa çağırırdı. Onun Azərbaycanlı tərəfdarı, qəzvinli Tahirə xanım mədrəsələrdə dini dərslər deyir, qadın hüquqlarını müdafiə edirdi. O, islam dünyasında üzünü açan ilk qadın idi, bəyan edirdi ki, yeni dövrün gəlişi ilə köhnə şəriət qanunları artıq ləğv edilib, ictimai həyatda qadınlara qoyulan bütün məhdudiyyətlər, onlara edilən bütün təhqirlər aradan qaldırılmışdır [47, s.177-178]. Həbs edilərək Tehranda saxlanılan Tahirə xanım da şaha sui-qəsddən sonra 1852-ci ildə gizlicə qətl edildi [31, c.143; 47, s.380]. Öldürülməsinə baxmayaraq, həm Tahirə xanım, həm də babilər İran tarixində özünəməxsus iz qoydular. Babilik içində Tahirə xanım kimi qadın fəalların mübarizəsini yüksək qiymətləndirən Mirzə Kazımbəy Şərqin parlaq gələcəyini məhz qadınların maariflənməsi ilə mümkün hesab edirdi. Mirzə Kazımbəyə görə babilər hərəkatı ilə qadınlar üzlərini ona görə açmırdılar ki, ismət və həya qanunlarını tapdalayıb utanmazlıqlarını nümayiş etdirsinlər, onlar bununla öz həmcinslərinə qadın azadlığının ləyaqəti şüurunu təlqin etmək istəyirdilər [31, c.13]. Mirzə Kazımbəy Babilik hərəkatının məğlub olmasına təəssüflənsə də babiliyin həm İranda, həm də Qafqazda gizli də olsa öz fəaliyyətini davam etdirdiyini qeyd edir, bu hərəkatın xalqın yaddaşında mütləq bir iz qoyacağına və gələcəkdə sosial islahatlara səbəb olacağına, həqiqətin və maarifçiliyin çiçəklənib möhkəmlənəcəyinə dərindən inanırdı [31, c.19].





İngilis şərqşünası E.Braun qətl edilən Tahirə xanımı "Qəzvinin gözəl peyğəmbəri" kimi təqdim edir və onun farsca şeirlərinin mistik gözəlliyini XV əsr fars şairi Ə.Caminin əsərləri ilə müqayisə edirdi [26, p.231, 347]. Tahirə xanımın ərəbcə, farsca dini risalələrinin bəzisi günümüzə çatıb [58].

"Sildim kafirliyi, həm müsəlmanlığı,
Kəbəylə kilsə birdir mənə" [42, s.48-49]

- deyərək dinlərüstü bir ideologiyanı təbliğ edən şairə 1852-ci ildə Nəsrəddin şahın və saray ruhanilərinin fitvasıyla küfrlə ittiham və şəhid edildi. Böyük Azərbaycan filosofu M.F.Axundzadə babilik hərəkatını və Tahirə xanımı yüksək qiymətləndirmiş, "Babilik əqidələri", "Babi məsləki" adlı bir əsərlər də yazmışdır. M.F.Axundzadə "Babilərin baş qaldırmasının səbəbini İran şahlığının qüsurları və islam dininin batil bir din olması" ilə izah etmişdir. O, iranlıların babiləri məhv etmək üçün göstərdiyi cəhdi də şüursuzluq, cəhalət və nadanlıq kimi qiymətləndirmişdir [2, s.195].

Babilik şiəliyin şeyxilik qolu əsasında formalaşdı. Qurucusu Seyid Əhməd Əhsai (ö.1826) olan və sonra onun tələbəsi Seyid Kazım Rəşti (ö.1843) tərəfindən inkişaf etdirilən şeyxilik 12 imama ilahilik nisbət edirdi. Əhsai imamlar tərəfindən ilahi elmə sahib olduğunu, Rəşti isə Mehdinin yaxında zühur edəcəyini bildirmişdi. Bütün bunlar babiliyin nəzəri əsasını hazırladı [44, s.84-86]. Şeyx Əhsainin "Cəvami əl-kəlim" ("Dərin kəlamlar") əsəri 1856 və 1859-cu illərdə, "Şərh əl-fəvaid əl-hikmiyyə" ("Hikmətin faydalarına şərh") 1854 və 1857-ci illərdə Təbrizdə nəşr edilmişdir. Şeyx Əhsainin 16-17-ci əsrlərin məşhur iranlı sufisi, şirazlı filosof Molla Sədranın əsərlərinə yazdığı "Şərh əl-məşair" ("Ağıl və vəhy" kitabına şərh"), "Şərh əl-Hikmət əl-ərşiyyə" ("Ərşin hikməti"nə şərh") 1861-ci ildə Təbrizdə çap olunmuşdur [29, s.76-77]. Şeyxiliyə görə "On iki imam Allahın arzusu

ilə bütün varlığın yaranmasının zəruri səbəbidir. Allah dünyanı imamların cövhəri vasitəsilə yaradıb və dünya onların hökmü ilə hərəkət etməlidir" [12, s.107]. S.Ə.Əhsai və S.K.Rəşti İranda isnəəşərilər (üsuli və əxbarilər) tərəfindən təqib edilmişdilər [43, s.218]. Molla Sədranın ölümdən sonra fiziki bədənin eynisilə yox, ancaq ruhani bədənlə diriliş fikrini müdafiə etdiyinə [29, s.72] görə Şeyx Əhsaini, şeyxiləri küfrlə ittiham etmişdilər [30, p.332]. Lakin "Kərbəladan Qanq çayına qədər müqəddəsliyi ilə məşhur və şiə inancının ən parlaq nuranisi hesab olunan" [27, p.66], həmçinin Fətəli şahın da rəğbət göstərdiyi [24, p.62] müctəhid Molla Məhəmmədbağır Şaftinin Şeyx Əhsaini təkfir etməkdə tərəddüd etməsi şeyxiləri demək olar ki xilas etdi [27, p.93-95, 310].

IV Qacar hökmdarı Nəsrəddin şah öz dövrünün böyük filosofu, Molla Sədra məktəbinin davamçısı Hadi Səbzəvariyə böyük hörmət göstərmiş, onu bütün vergilərdən azad etmək istəmiş, lakin filosof bunu qəbul etməmişdi [55]. Marağalı Etimadüssəltənə H.Səbzəvarini "öz dövrünün ən böyük İran filosofu və mütləq hikmət sahibi" [51, s.198] adlandırır. Molla Əli Nurinin tələbəsi olmuş [29, s.29] H.Səbzəvari (ö.1872) islam fəlsəfəsi ilə sufizmi və şiəliyi sintezə dayanan bir fəlsəfi məktəb yaratmışdı [38, s.12-13]. Filosof, Nəsrəddin şahın təklifi ilə "Əsrarül-hikəm" ("Hikmətlərin sirləri") adlı fars dilində dini-fəlsəfi əsər qələmə almış və kitab öz sağlığında nəşr edilmişdi [45, s.12]. Filosofun davamçılarından biri də görkəmli azərbaycanlı ruhani Mirzə Əbutalib Zəncani (ö.1911) idi. Onun atası Mirzə Əbülqasim Zəncani də məşhur din xadimi olmuş, babiliyə qarşı mübarizə apararaq, "Rəddül-Bab" ("Baba rəddiyyə") və s. əsərlər yazmışdır. Cəmaləddin Əfqaninin "ittihadi-islam" siyasətini müdafiə edən Mirzə Əbutalib Zəncani sonralar məşrutəyə qarşı olmuş [57], dövrün ingilis diplomatlarının dediyinə görə II Əbdülhəmidə tərəfdar olmuşdur [6, s.110]. O da C.Əfqani kimi Nəsrəddin şahın qətlində günahlandırılmış və qətl edilmişdir [54, s.43].

XIX əsrin II yarısında Avropanın sənayeləşdirmə sivilizasiyasının təsiri altında və Qərbin müstəmləkəçilik siyasəti nəticəsində, İran yeni mədəni mərhələyə qədəm qoydu. Eyni zamanda mütərəqqi ziyalıların ölkəni maarifləndirmək üçün etdiyi cəhdlər səmərəsiz qalmırdı.

Məzhəbçiliyə və irançılığa qarşı islam birliyini müdafiə edən C.Əfqani islam dünyasını ağır «xəstə»yə bənzədir, müsəlman dünyasının xilası üçün ilkin islamı mənimsəmək və əməl etməklə yanaşı, milli mədəniyyətlərinə sahib çıxmalarını, həmçinin milli varlıqlarını qoruyub saxlamalarını tövsiyə etmişdir [7, s.46]. Çünki milliyyət din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulur. Milli varlığın təməlini milli mədəniyyətin ünsürləri təşkil edir. C.Əfqani və onun ardıcıllarının – müsəlman burjua ziyalılarının, İslamın müasirləşdirilməsi tərəfdarlarının «İttihadi-İslam»ı daha





çox antiimperialist, ümumdemokratik məzmun ifadə etmişdir [7, s.46]. M.Ə.Rəsulzadə də C.Əfqanini mürtəce, mühafizəkar panislamizmə yox, yenilikçi, liberal panislamizmə aid etmiş, onun milli şüurun, milli dillərin qorunması ideyasını dəstəkləmişdir [19, s.43-44]. C.Əfqani "ər-Rədd ələd-dəhriyyə" ("Materializmə rəddiyyə") adlı kitab yazıb, "dini millətlərin nizamı, qurtuluş və səadətinin əsası" [48, s.5] saymış, islamı elm, fəlsəfə və mədəniyyət düşməni sayan fransız filosofu E.Renana və Qərbə qarşı islamı müdafiə etmişdir [36, s.183; 17, s.37-38]. Lakin o, mason cəmiyyətinə üzv olduğuna görə [22, p.63], babilərlə əməkdaşlığına görə [40, s.456-466] ittiham edilmişdir. Bəhai dini icmasının Bəhaullahdan sonrakı rəhbəri Əbdülbəhanın (ö.1921) ingilis şərqşünası E.Brauna yazdığı məktubda həm C.Əfqaninin, həm də Mirzə Mülküm xanın babilərdən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışdığı qeyd olunur [26, p.296]. Osmanlı şeyxülislamı Həsən Fəhmi C.Əfqanini küfrlə ittiham etmiş, 1871-ci ildə Türkiyədən sürgün edilməsinə səbəb olmuşdu [40, s.456-466]. Qacar tarixçisi marağalı Etimadüssəltənə C.Əfqaninin Misirdə Əzhər Universiteti tələbələrinə dərs dediyi və Parisdə "Urvətül-vüsqa" qəzetini nəşr etdirməsi haqqında məlumat verir [51, s.302]. O, C.Əfqaninin Rusiyaya, Peterburqa səyahəti haqqında da yazır [51, s.303]. O dövrdə Tiflisdə nəşr olunan "Kəşkül" qəzetinin səhifələrində C.Əfqaninin Bakı üzərindən Tehrana getdiyi qeyd edilmiş, qəzet oxucularının onu yaxşı tanıdığı göstərilmiş [13, s.2; 20, s.2], fikirlərindən nümunə verilmişdi. Tənbəki üsyanı zamanı Nəsrəddin şahın qətlinə əmr verən C.Əfqani bu məsələdə günahlandırılmış, bir ehtimala görə Sultan II Əbdülhəmidin əmriylə zəhərləndirilib öldürülmüşdü [8, s.205-206; 1, s.29].

Məşrutə dövründə Təbriz Əncüməninin əsas üzvlərindən biri olan məşhur ədib Mirzə Məhəmmədəli xan Tərbiyətin [49, s.167] "Danişməndani-Azərbaycan" əsəri Azərbaycan mütəfəkkirlərinin həyat və yaradıcılığı baxımından zəngindir. Əsərdə Azərbaycan tarixçisi Abbasqulu ağa Qüdsi (Bakıxanov) [21, s.72] və s. görkəmli şəxsiyyətlər haqqında geniş məlumatlar var. M.M.Tərbiyət görkəmli filosof M.F.Axundzadənin müsəlman xalqlarının inkişafı yolunda etdiyi maarifçilik xidmətini yüksək qiymətləndirmiş, əlifba islahatı haqqında məlumat vermişdir. M.Tərbiyət qeyd edir ki, M.F.Axundzadə "müasir Qərb xalqlarının mədəniyyətini Şərq xalqlarına aşılamaq" istəyir və əsərlərini "müsəlman xalqlarının adət-ənənələrinin, dövlət rejiminin tənqidinə həsr etmişdi" [21, s.29-30]. Qacarların Londondakı səfiri, "Qanun" qəzetinin naşiri Mirzə Mülküm xan da M.F.Axundzadəni "Böyük bir məramın böyük atası" adlandırır [3, s.64], "Kəmalüddövlə məktubları"nı İstanbulda çap etdirmək istəyirdi [3, s.18]. Mirzə Mülküm xan əlifba islahatı mövzusunda olan "Şeyx və vəzir" adlı türkcə əsərini M.F.Axundzadəyə də göndərmiş və bu əsər onun tərəfindən bəyənilmişdi

[37, s.112]. Mirzə Mülküm xan M.F.Axundzadəyə yazdığı məktubda ruhanilər əlifbanı "dinin bir parçası" [23, p.91] sayırlar. İrandakı tənəzzülün səbəbini ərəb əlifbasında görən Mirzə Mülküm xan "Əgər əlifba dəyişdirilərsə, İranda yoxsulluq ortadan qalxar, şahlıq da ləğv olar" [37, s.111], deyirdi. Mirzə Mülküm xanın əlifba çalışmalarını bəyənən M.F Axundzadə yazırdı ki, "Həqiqi alim və hörmətəlayiq Mirzə Kazımbəy də onu dəstəkləyir" [32, c.68].

Şahlıq rejiminə qarşı demokratik ideyaları müdafiə edən Mirzə Mülküm xan ərəb əlifbasının çətinliyini müsəlmanların elmi, ictimai-siyasi inkişafına mane sayır [37, s.113], fəlsəfə və s. dünyəvi elmlərin məktəblərdə tədrisini tələb edirdi [39, s.82]. Qadın azadlığını və maarifçiliyi təbliğ edən Mirzə Mülküm xan "Qanun" qəzetində yazırdı: "Biz qadınları uşaq tərbiyəsi, ailənin rifahı və dünya tərəqqisinin stimulu hesab edirik. Və qızların tərbiyəsinin sivilizasiyanın ən müqəddəs vəzifələri olduğuna inanırıq" [52, p.11-12]. Avropalılaşmağı və Qərbin dövlət idarə sistemini İranda tətbiq etməyə çalışan Mirzə Mülküm xan "Avropa millətləri bir çox mücadilədən sonra ədalət, azadlıq, seçib-seçilmə haqqına sahib oldular. Əgər müsəlmanlar həqiqətən də bu haqlara sahib olmaq istəyirsə, niyə Avropanı təqlid etmirlər?" [39, s.62] deyirdi. Volter, Russo kimi Qərb filosoflarının xalqı zülmə qarşı mübarizəyə çağırdığını deyən Mirzə Mülküm xan "Məzlum zülmə dözməməlidir" [39, s.72] deyərək, xalqı şahlıq rejiminə qarşı mübarizəyə səsləyirdi. O, xalqı cəhalətdə saxlayan mürtəce ruhanilərə xitabən "Siz milləti parçalayırsınız, onları bir-birinə düşmən edirsiniz" [3, s.58] deyə tənqid edir, İranda dünyəvi, demokratik idarəetmə sisteminin qəbuluna çalışırdı [32, c.116]. Mirzə Mülküm xanın yaradıcılığı XX əsrin əvvəlində şah və molla rejiminə qarşı mübarizə aparan məşrutə inqilabçılarına böyük təsir göstərmiş, mütəfəkkirin "Qanun" qəzetinin bəzi nömrələri isə məşrutə inqilabı dövründə Tehranda yenidən nəşr edilmişdir [3, s.25]. Lakin şah və molla rejiminin məşrutəyə qarşı inadlı mübarizəsi və sonda qələbəsi bu demokratik ideyaların İranda geniş yayılmasına və möhkəmlənməsinə mane oldu. "Molla Nəsrəddin" jurnalında da Mirzə Mülküm xanın demokratik fikirləri təbliğ edilir, o, "Alimi-yeganə" [16, s.129] adlandırılırdı. Jurnalda Mirzə Mülküm xanın müsəlmanları vəhdətə dəvət edən yazılarından nümunələr verilir və belə yazırdı: "Mirzə Mülküm xan "Qanun" qəzetinin onuncu nömrəsində üzünü müsəlmanlara tutub deyir: "Əgər sizdə şüur olsaydı və ən azı ittifaqın mənasını bilsəydiniz, o vaxt hansı zalım cürət edə bilərdi ki, sizin insanlıq hüququnuza əl uzatsın?" [15, s.201].

Nəticə olaraq deyə bilərik ki, Qacarlar dövründə fəlsəfə əsasən dini mahiyyət daşımışdır. Mürtəce ruhanilərin təzyiqləri və Qacar şahlarının ruhaniləri müdafiə etməsi səbəbilə dünyəvi fəlsəfə geniş yayıla bilməmiş, hətta şəriətə nisbətən daha çox mənəvi azadlığa meyilli olan təsəvvüf fəlsəfəsi də





din xadimləri tərəfindən hücumlara məruz qalmış, bir çox sufi küfrlə ittiham edilmiş, qətl edilmişdir. Radikal şəriət ehkamlarına qarşı mübarizə aparan, din və vicdan azadlığını, qadın haqlarını müdafiə edən babilik, şeyxilik kimi cərəyanlar da bu təzyiq və ittihamlardan özünü qoruya bilməmiş, nümayəndələri çox vaxt qətl edilmişdir. Nemətullahilərin sufiliklə şiəliyi birləşdirmə cəhdi, irfan fəlsəfəsini təbliğ etmələri də ancaq qısa bir müddət ərzində onlara sarayda imtiyaz qazandırmış, lakin ruhanilərin təzyiqlərilə onlar da geri çəkilməyə məcbur qalmışdırlar. İranda C.Əfqani, Mirzə Mülküm xan kimi dünyəviliyi müdafiə edənlərin şah və molla rejiminə qarşı mübarizə ideyası XIX əsrdə ölkədə qəbul görməmiş, ancaq XX əsrin əvvəlində məşrutə inqilabı dövründə bu ideyalar təbliğ edilmişdir. Lakin məşrutənin məğlubiyyətilə Qacar İranında mürtəce dini, monarxiya rejimi davam edə bilmişdir.

**Ədəbiyyat**


1. Ağaoğlu Ə. İran və inqilabı. Bakı, 2009, 152 s.
2. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı, 1987, 368 s.
3. Baxşəliyev O. Mirzə Melkum xan: həyatı və ədəbi fəaliyyəti. Bakı, 1970, 76 s.
4. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 2000, 224 s.
5. Çingizoğlu Ə. və Məmmədli B. XVIII-XIX əsr Azərbaycan tarixi farsdilli mənbələrdə. Bakı, 2018, 216 s.
6. Çingizoğlu Ə. Məşrutə hərəkatında ruhanilərin rolu. Bakı, 2018, 160 s.
7. Ələkbərov F. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış. C. 2, Bakı, 2014, 500 s.
8. Həsənzadə T. XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər: Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında. Bakı, 2007, 320 s.
9. Hüseynzadə Ə. Seçilmiş əsərləri. C. 2, Bakı, 2008, 496 s.
10. Kərəmov N. Qırx il səyahətdə. Bakı, 1977, 184 s.
11. Kərimov B. XIX əsrin II yarısında Azərbaycan elminin inkişafında İrəvan ziyalılarının rolu. Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası), 2014, № 2, s.201-208.
12. Kərimov R. Q.Zakirin dini şeirləri. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri (Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransının materialları. Bakı, 2013, s.106-117.
13. "Kəşkül" qəzeti, 1889, 11 noyabr, s.2.
14. Qacar Ç. Qədim və orta əsrlər Azərbaycanının görkəmli şəxsiyyətləri. Bakı, 1997, 304 s.
15. Məmmədquluzadə C. Əsərləri. C. 2, Bakı, 2004, 584 s.

16. Məmmədquluzadə C. Əsərləri. C. 4, Bakı, 2004, 472 s.
17. Mürşüdlü Q.C. Cəmaləddin Əfqaninin sosial-siyasi fəlsəfəsi. Bakı, 2019, 141 s.
18. Niyazov Ə. "Azərbaycanda din tədrisi təcrübəsi: "Zübdətül-islam" və "Şəraiül-islam" əsərləri nümunəsi əsasında". Din araşdırmaları jurnalı, 2018, № 1, s.87-100.
19. Rəsulzadə M.Ə. Panturanizm. Qafqaz sorunu. Bakı, 2012, 68 s.
20. Şeyx Cəmaləddin. "Kəşkül" qəzeti, 1889, 30 oktyabr, s.2.
21. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı, 1967, 464 s.
22. Abrahamian E. Iran between two revolutions. Princeton, 1983, 562 p.
23. Algar H. Mirza Malkum Khan. A Biographical Study in Iranian Modernism, California, 1973, 352 p.
24. Algar H. Religion and State in Iran 1785-1906. The Role of the Ulama in the Qajar Period. Berkeley, 1980, 286 p.
25. Bos M.V.D. Mystic regimes: sufism and the state in Iran, from the late Qajar era to the islamic republic. Leiden, 2002, 286 p.
26. Browne E. Materials for the study of the Babi religion. Cambridge, 1918, 384 p.
27. Maceoin D.M. From Shaykhism to babism: a study in charismatic renewal in Shii Islam. London, 1979, 369 p.
28. Martin V. Islam and Modernism: The Iranian Revolution of 1906. London, 1989, 245 p.
29. Pourjavady R. Philosophy in Qajar Iran. Leiden, 2019, 391 p.
30. Smith P. A concise encyclopedia of the Baháí Faith. Oxford, 2000, 396 p.
31. Казем-Бек. М. Избранные произведения. Баку, 1985, 420 с.
32. Рзаев А.К. Мухаммед Али Мирза Казем-Бек. Москва, 1989, 199 с.
33. Algar H. Bihbehani Muhammed Ali. TDV İslam Ansiklopedisi, Cilt 6, İstanbul, 1992, s.142-143.
34. Arjomand S.A. Safevi dönemi İranında dini taşkınlık (gulüvv), sufilik ve sünnilik (1501-1722). Cappadocia Journal of History and Social Sciens, 2016, № 1 (7), s.160-195.
35. Ay Z. 16-17. Yüzyıllar İranında Safevi-Nizari ilişkilerinin dini ve siyasi etkileri üzerine tarihsel bir değerlendirme. Tarihin Peşinde, 2019, № 21, s.465-466.
36. Cilacı O. "Ernest Renana karşı türk-islam dünyasında reaksiyonlar". Süleyman Demirel Üniversitesi İlahiyat fakültesi dergisi, 1995, № 2, s.181-191.
37. Devebakan M. İranın modernleşme ve meşrutiyete geçiş sürecinde önemli bir aktör: Mirza Malkum Han (1833-1908). Tokat, 2008, 135 s.





38. Hitchins K. Hadi-i Sebzevari. TDV İslam Ansiklopedisi, Cilt 15, İstanbul, 1997, s.12-13.
39. İmamoğlu O. Mirza Malkum hanın risalelerinde İran modernleşmesi. Van, 2019, 118 s.
40. Karaman H. Efgani Cemaleddin. TDV İslam Ansiklopedisi, Cilt 10, İstanbul, 1994, s.455-456.
41. Lewisohn L. Modern İran tasavvufunun tarihine bir giriş: Nimetullahi tarikatı: zülüm, ihya ve bölünme. / terc. ed. İ.Külbilge. Sufi Araştırmaları, 2016, № 14, s.71-108.
42. Marufi M. Tahire. Sivas, 1998, 51 s.
43. Moazami B. İranda devlet, din ve devrim. İstanbul, 2018, 320 s.
44. Öz M. Şeyhiyye. TDV İslam Ansiklopedisi, Cilt 39, İstanbul, 2010, s.84-86.
45. Pirinç A. Molla Hadi Sebzevarinin metafizik görüşleri. Elazığ, 2005, 230 s.
46. Uyar M. İranda modernleşme ve din adamları. İstanbul, 2008, 331 s.
47. Zerendi Nebil M. Nebil Tarihi. İstanbul, 2001, 388 s.
48. Əfqani C. Ər-rədd alə əd-dəhriyyin. Qahirə, 1320, 90 s.
49. Təbrizi Ə.K. Tarixe-məşruteye-İran. C. 1, Tehran, 1343, 450 s.
50. Rəfi Həqiqət Ə. Daneşməndan-e İran. Tehran, 1389, 641 s.
51. Sanioddowleh (İtimadossaltaneh) M.H. Al-Maasir va al-athar. Vol.1, Tehran, 1989, 430 s.
52. Bashir H. Qanun and the Modernisation of Political Thought in Iran. – 39 p., (2019). URL: https://isu-ir.academia.edu/HassanBashir
53. Çingizoğlu Ə. Hacı Zeynalabdin Şirvani: Tehranı dağıtmaq istəyən dərviş / Təbliğat və Maarifləndirmə – (5.07. 2019). URL:https://hi-in.facebook.com/maariflendirme/photos/hac%C4%B1-zeynalabdin-%C5%9Firvani-tehran%C4%B1-da%C4%9F%C4%B1tmaq-ist%C9%99y%C9%99n-d%C9%99rvi%C5%9F-ara%C5%9Fdirmahac%C4%B1-zeynalabd/1062407633955600/
54. İbrahimov (Şahin) T.A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti. – 66 s.
URL:https://www.achiq.info/pitikler/t%20shahin%201ci.pdf
55. Macəraye-calibi-mülaqat Nasirəddin şah və Hac Molla Hadi Səbzəvari. (22 Fərvərdin 1400) URL:https://www.jamaran.news/%D8%A8%D8%AE%D8%B4-%D8%A7%D8%AE%D8%A8%D8%A7%D8%B1-138/454475-%D9%85%D8%A7%D8%AC%D8%B1%D8%A7%DB %8C-%D8%AC%D8%A7%D9%84%D8%A8-%D9%85%D9%84%DB1%D8%A7%D9%84%D8%AF%DB%8C%D9%86-%D8%B4%D8%

A7%D9%87-%D8%AD%D8%A7%D8%AC-%D9%85%D9%84%D8%
B2% D9%88%D8%A7%D8%B1%DB%8C
56. Mirza Kummi. URL:http://www.alulbeyt.com.tr/mirza-kummi-r-a_h371.html
57. Seyid (Mirzə) Əbutalib Zəncani. (12 Mehr 1394).
URL:http://nbo.ir/%D8%B3%DB%8C%D8%AF-%D8%
A7%D8%A8%D9%88%D8%B7%D8%A7%D9%84%D8%A8-%D8%B2%
D9%86%D8%AC%D8%A7%D9%86%DB%8C-%D9%85%DB%8C%D
8%B1%D8%B2%D8%A7-%D8%A7%D8%A8%D9%88%D8%B7%D8%
A7%D9%84%D8%A8-%D8%B2%D9%86%D8%AC%D8%A7%D9%
86%DB%8C__a-65.aspx
58. Writings of Tahirih in Arabic and Persian. URL: https://www.h-net.org/~bahai/areprint/tahirih/tahirih.htm